# Kitab qiymətli hədiyyədir

**14 fevral – Beynəlxalq kitab bağışlama günü 2012-ci ildən qeyd edilir. Bu bayram ABŞ-da məşhur "Delightful Children's Books" uşaq kitabı saytının yaradıcısı Emmi Brodmoorun adı ilə bağlıdır. Əsas məqsədi, adından da göründüyü kimi, kitab bağışlamaqla gənc nəslə mütaliə vərdişi aşılamaq, insanların mənəvi zənginliyini artırmaqdır.**



Bayram münasibətilə ölkəmizdə də kitab bağışlama aksiyaları, görüşlər və sərgilər təşkil edilir. Azərbaycan Dövlət Pedaqoji Universitetində Kitabxana-İnformasiya Mərkəzinin təşkilatçılığı ilə Beynəlxalq Kitab Bağışlama Gününə həsr olunan tədbir keçirilib. Bakı şəhəri Nəsimi rayonu general-leytenant Kərim Kərimov adına 8 nömrəli tam orta məktəbin müəllim və şagirdləri də iştirak ediblər.

Mərkəzinin direktoru Zinharə Həsənova çıxışında deyib ki, Beynəlxalq Kitab Bağışlama Günü onların təşkiltçılığı ilə hər il ənənəvi olaraq müxtəlif məktəblərlə birgə keçirilir. Başlıca hədəf uşaqlarda kitaba sevgi, böyüklərdə isə bağışlamaq, hədiyyə etmək ovqatını gücləndirməkdir.

Universitetin rektoru, tarix elmləri doktoru, professor Cəfər Cəfərov təhsilin xalqların taleyindəki rolundan bəhs edib. Rektor müasir dövrün çağırışlarına cavab verən gənc kadrların hazırlanmasının vacibliyini vurğulayıb. Qeyd edib ki, uşaq, yeniyetmə və gənclər arasında oxu vərdişini gücləndirməklə buna nail olmaq mümkündür.

Görüşün sonunda şagirdlərə kitablar hədiyyə olunub.

***

Sumqayıt Dövlət Dram Teatrında Beynəlxalq Kitab Bağışlama Günü kreativ layihə ilə yadda qalıb. Belə ki, teatrın yeni yaranacaq kitabxanası üçün bir kitab gətirən hər tamaşaçı "Ocaq" tamaşasına dəvətnamə əldə edib. Tədbirə qatılan Milli Məclisin deputatları Elnarə Akimova, Aydın Hüseynov, Ceyhun Məmmədov, AMEA Ədəbiyyat İnstitutunun direktor müavini və başqaları beynəlxalq günün önəmindən, insanlarda mütaliə mədəniyyətinin yüksəldilməsi zərurətindən danışıb və şəxsi kitabxanalarından müəyyən nəşr nümunələrini teatra hədiyyə ediblər.

Şəhər ədəbi mühitinin tanınmış simaları, Sumqayıt Dövlət Universitetinin müəllim və tələbə heyəti layihədə fəallıq göstəriblər. Daha sonra qonaqlar ünlü türk yazar Turqut Özakmanın yazdığı "Ocaq" psixoloji dram əsərinə teatrın baş rejissoru, Xalq artisti, Qızıl Dərviş mükafatı laureatı Firudin Məhərrəmovun quruluşunda tamaşa ediblər.

***

"Qədim Qala" nəşriyyatı bayramla əlaqədar özəl endirimlər tətbiq etməklə hər kəsə istədiyi kitabı almaq imkanı yaradıb. Eyni zamanda mütaliəsevərlər arasında öz kitab rəflərində uzun müddətdən bəri qalıb, oxunmayan nəşrləri yeni sahibinə ötürmək və beləliklə, hər kəsin kitab oxumasına şərait yaratmaq da təşviq edilib. Bir gündə 50-ə yaxın kitab güzəştli qiymətə satılıb. Nəşriyyatda aksiya davam edir.

***

Kitab Bağışlama Günü ilə əlaqədar paytaxtın Nizami rayonu 12 nömrəli tam orta məktəbin 1-ci sinif şagirdləri 318 nömrəli tam orta məktəbin 3-cü sinif şagirdlərinə çoxsaylı kitab hədiyyə ediblər. Aksiya uşaqlarda kitaba məhəbbət oyadılması və hədiyyə etmək vərdişinin formalaşması baxımından yüksək dəyərləndirilib.

***

Nəhayət, qeyd edək ki, "Xalq qəzeti" redaksiyasında işğaldan azad olunmuş Qarabağ və Şərqi Zəngəzurda yaradılan kütləvi kitabxanaların fondunu zənginləşdirmək məramı ilə kitab toplama aksiyasına start verilib. Qəzetin oxucuları da aksiyaya qatıla bilərlər.

***XQ***

Xalq qəzeti .- 2025.- 15 fevral (№ 34).- S.10.